

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 29 (22.940)

13 fevral 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 12 fevral tarixli Sərəncamı ilə xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçuları da vardır.

**Salmanov Səxavət İbrahim oğlu – general-mayor**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə,

**Zamanov Sultan Valeh oğlu – polkovnik-leytenant**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvanda İran İslam İnqilabının 39-cu ildönümü münasibətilə tədbir keçirilib





Fevralın 12-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu İran İslam Respublikasının yaranmasının 39-cu ildönümü – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikasının və İran İslam Respublikasının Dövlət himnləri səsləndirilmiş, "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom çıxış edərək İran İslam Respublikasının 1979-cu ildən ötən dövrdə keçdiyi yoldan və ölkəsinin beynəlxalq əlaqələrinin inkişafı sahəsində görülən işlərdən danışmışdır. Diqqətə çatdırılmışdır ki, bu gün İran və Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir. İran İslam Respublikası Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Həyata keçirilən qarşılıqlı səfərlərə diqqəti çəkən baş konsul İranın yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında gedişgəlişin artmasını, iqtisadi-ticarət əlaqələrinin genişlənməsini səmərəli əməkdaşlığın nəticəsi kimi dəyərləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dost və qardaş İran xalqının milli bayramı – İslam inqilabının 39-cu ildönümü münasibətilə qardaş İran xalqını təbrik etmiş, İran dövlətinə inkişaf və tərəqqi arzulayaraq demişdir: Azərbaycan və İran xalqlarını qarşılıqlı mədəniyyət və ortaq dəyərlər birləşdirir. Bu amil hazırda ölkələrimiz arasındakı əlaqələrin inkişafı üçün geniş imkanlar açıb. Hər iki ölkə rəhbərinin səyi ilə dostluq və qardaşlıq əlaqələrimiz daha da inkişaf edir, faydalı əməkdaşlıq əlaqələri qurulur. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri arasında enerji, təhsil, turizm, ticarət və nəqliyyat sahələrində səmərəli əməkdaşlıq mövcuddur. Həyata keçirilən qarşılıqlı rəsmi səfərlər, imzalanan sənədlər və əldə olunan razılıqlar əlaqələrimizin inkişafına öz töhfəsini verməkdədir.

Ali Məclisin Sədri hazırda ölkələrimiz arasındakı münasibətlərin davamlı inkişaf mərhələsinə qədəm qoyduğunu bildirmiş, səmimi dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da möhkəmlənəcəyinə əminliklə çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"İran-Azərbaycan əlaqələrinin uğurlu inkişafı bizi çox sevindirir. Bizim əlaqələrimiz tarixə əsaslanır. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir və ümumi işimizə böyük töhfədir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlər ölkəmizdə iqtisadi yüksəlişlə bərabər, həm də yeni yaşayış massivlərinin salınması, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması ilə səciyyələnir. Məhz həmin illərdə istər kənd yaşayış yerlərində, istərsə də şəhərlərdə əhalinin xeyli hissəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılmış, yeni binalar tikilmiş, fərdi evlərin sayı çoxalmış, minlərlə insanın maddi rifahı yüksəlmişdir. Eyni zamanda ulu öndər tərəfindən Azərbaycanda həyata keçirilən abadlıq-quruculuq tədbirləri çərçivəsində sosial-ekoloji problemlərin həlli istiqamətində də böyük işlər görülmüşdür.*

## Mənzil-məişət şəraitinin yaxşılaşdırılması əhalinin məişət mədəniyyətinin yüksəlməsinə öz töhfəsini verir



Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş bu quruculuq xətti muxtar respublikamızda uğurla davam etdirilir. Bu siyasət bir tərəfdən ulu öndərin alternativsiz siyasi irsinə sədaqətin nəticəsidirsə, digər tərəfdən dövlətin öz vətəndaşlarına göstərdiyi qayğının təzahürüdür. Muxtar respublikada əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da mühüm vəzifə kimi qarşıya qoyulub. Bir zamanlar Sovetlər Birliyi dövründən qalmış köhnə yaşayış binalarının yerində indi yenidən qurulmuş və ya tikilmiş müasir binaları gördükcə dövlətimizin bu sahədəki xidmətlərini görməzdən gələ bilmirsən. Əgər 20-25 il bundan əvvəl hər hansı bir tikinti təşkilatı ildə cəmi bir obyektdə inşaat işləri aparmaq imkanına malik idisə, bu gün dövlət qayğısından bəhrələnən və muxtar respublikanın çiçəklənməsində böyük rolu olan tikinti şirkətləri onlarla yaşayış binasını inşa etmək imkanına malikdir. Əgər o dövrdə tikilən yaşayış binaları bir-birinin təkrarı idisə, bu gün yeni binalar öz fərqli memarlıq üslubuna görə şəhərin özünəməxsus arxitekturasını tamamlayır. Bu arxitektura elementlərində millilik və müasirlik atributlarından layiqincə istifadə olunması isə təkcə mühəndislik bacarığında deyil, həm də görülən işə yaradıcı yanaşmada öz əksini tapır. Təbii ki, qapılarını yenidən və yaxud yeni olaraq öz sakinlərinin üzünə açan belə mənzillərin yerləşdiyi yaraşıqlı binaların ətrafı da unudulmur. Belə ərazilərin abadlaşdırılması, ilə yanaşı, dövrün tələbinə uyğun olaraq yaxınlıqda müxtəlif iaşə xidmətləri obyektləri, eləcə də avtomobillər üçün dayanacaqlar da salınır. Bütün bunlar isə yaşayış massivlərinə gözəllik bəxş etməklə yanaşı, yenidən qurulan binaların sakinlərinə təmənnasız təqdim olunur. Sakinlərin üzərinə isə qurulub-yaradılanları qorumaq vəzifəsi düşür.

Vurğulamaq lazımdır ki, ötən müddət ərzində muxtar respublikanın paytaxt şəhəri də daxil olmaqla, xeyli sayda bina əsaslı şəkildə yenidən qurulub, mənzillərin sahələri genişləndirilib, yaşayış binalarının əksəriyyəti möhkəmləndirilib və əlavə mərtəbələr artırılıb, lazımi kommunal-məişət şəraiti yaradılıb. Son illərdə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, Əziz Əliyev, "İstiqlal", Atatürk küçələrində, "Atabəylər" məhəlləsində və adlarını sadalamadığımız digər ünvanlarda, həmçinin rayon mərkəzlərində onlarla yaşayış binası tikilib və yaxud yenidən qurularaq istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 7 noyabr tarixli Fərmanı ilə yaradılmış "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti isə ümumi və müxtəlif əhali qruplarının mənzillə təmin olunmasına şərait yaradıb.

Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər 2017-ci ildə də davam etdirilib. Ümumilikdə, ötən il muxtar respublikada 2 yaşayış binasının tikintisi, 7 yaşayış binasının yenidən qurulması, 2 yaşayış binasının əsaslı təmiri başa çatdırılıb. 3 yaşayış binasının tikintisi, 7 yaşayış binasının yenidən qurulması isə davam etdirilib.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. 2017-ci ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 377 min 699 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da 2016-cı ildəki müvafiq göstəricidən çoxdur.

Bəli, muxtar respublika əhalisinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davamlı xarakter daşıyır. Yaradılmış ictimai-siyasi sabitlik, dayanıqlı inkişaf, müsbət miqrasiya prosesləri regionu yaşayış üçün daha da cazibədar edir. Quruculuq tədbirlərində görülən işlərə kompleks yanaşma isə yuxarıda da qeyd olunduğu kimi, əhalinin məişət şəraitinin və mədəniyyətinin yüksəlməsinə öz töhfəsini verir.

✍ **Səbuhi HƏSƏNOV**

## Mülki Müdafiə Alayında andiçmə mərasimi olub

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında üçrəngli bayrağımız meydana gətirilib. Sonra gənc əsgərlər Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Mərasimdə alay komandiri, polkovnik-leytenant Azadil Hüseynov hərbi andın əhəmiyyətindən danışıb. Bildirilib ki, hərbi and içən əsgər Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacağına, bundan ötrü qanını və canını əsirgəməyəcəyinə təntənəli surətdə vəd edir. Hərbi anda sadiq qalmaq hər bir əsgər üçün şərəf, namus və vicdan məsələsidir.

Tədbirdə çıxış edən kapitan Oktay Həsənov, əsgər Əhməd Əhmədov, gənc əsgər Sirus Cavadzadə, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elşən Rəfiyev, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov, valideyn Aydın Məmmədov gənc əsgərləri təbrik ediblər.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini general-mayor Hikmət Kərimov çıxışında Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Silahlı Qüvvələrimizin rolundan danışıb, gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıb.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

**Xəbərlər şöbəsi**



Bölgələrimiz bu gün

# Qədimliyini qoruyaraq müasirliyinə qovuşan məkan

# Culfa



***Daha bir uğurlu il tariximizə öz izlərini yazdı. Bu izləri muxtar respublikamızın bütün bölgələrində görmək olar. Ona görə də yurd, torpaq təəssübünü hər şeydən üstün tutan hər bir naxçıvanlının ötən ilin göstəricilərinə sevinməsinə mənəvi haqqı çatır. Və o da qürurvericidir ki, belə uğurların qazanılmasında bölgələrimiz sanki bir-birilə, yaxşı mənada, rəqabətə giriblər. Naxçıvanın Şərqə açılan qapısı hesab edilən Culfa da bu sıradadır. Bu gün bölgədə insanların maddi rifah halı xeyli yaxşılaşıb, onların məşğulluğunun təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Zəhmətdən çəkinməyən, torpağı daimi iş yerinə çevirən culfalılar doğma yurd yerinin bugünkü büsatından fəxarət hissi keçirirlər. Bu həm də onunla bağlıdır ki, həmin bölgəyə qonşu İran İslam Respublikasından keçməklə çoxlu xarici turistlər gəlir. Onlar da qədim yurd yerimizin bugünkü büsatını, culfalıların yaşayış tərzini görür, bu rayon mərkəzinə göstərilən dövlət qayğısının şahidi olurlar. Qısası, Culfa bu gün müasir Azərbaycan rayonudur. Və daha xoş sabahlara doğru inamla addımlayır.***

### *Hər qaranlıq gecənin bir işıqlı gündüzü var və ya yeni quruculuq ünvanları*

Qədim tarixi olan bu yurd yerinin yaxın keçmişinə qayıdaraq o dövrü xatırlayanlar bugünkü inkişaf və tərəqqi müstəvisində keçmişlə müqayisə apara bilməzlər. Çünki sovet dönəmində burada barmaqla sayılası həcmdə iş görülmüşdü. Baxmayaraq ki, Culfa o vaxt hərbçilər və dəmiryolçular şəhəri kimi tanınırdı. Buraya bir ucu Vladivostokdan, bir ucu Kamçatkadan, Sibirdən qonaqlar gəlirdi. Ovaxtkı Culfa Rayon Partiya Komitəsinin, Gömrük İdarəsinin və "İnturist" mehmanxanasının binaları dövrün yeni tikililəri olsa da, ənənəvi layihələrdən seçilmirdilər. Digər tikililər də cansıxıcı görkəmilə insanlara darıxdırıcı, üzücü təsir bağışlayırdı.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə bu bölgənin də üzünə gün doğdu. Rayonda həyat canlanmağa başladı. Culfa şəhərində və kənd yaşayış məntəqələrində yeni tikililər həyata vəsiqə aldı. Çox təəssüf ki, 1988-ci ilin sonlarından başlanan hadisələr bu rayonu da iflic vəziyyətə saldı. Ancaq hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanan culfalılar çətinliklərə dözdülər. Ulu öndərimizin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikanın digər bölgələri kimi, Culfa rayonu da yeni inkişaf dövrünə qədəm qoydu.

Son 22 il ərzində rayonun siması tamamilə dəyişib. Culfa şəhərində və bölgənin kəndlərində istifadəyə verilən yeni tikililəri saymaqla qurtarmaq olmaz. Həmin obyektlərin hamısı müasir arxitektura üslubunda və gələcək perspektivlər nəzərə alınmaqla inşa olunub. Tarixə qovuşan ötən ildə bu tədbirlər müxtəlif istiqamətlərdə davam etdirilərək rayonun quruculuq xəritəsinə yeni ünvanlar yazıb.

Məlumat üçün bildirək ki, 2017-ci ildə bütün maliyyə mənbələrindən əsas kapitala 2016-cı illə müqayisədə 0,6 faiz çox olmaqla, 39 milyon 110 min manat investisiya yönəldilib. Bu dövrdə rayonda tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi əvvəlki illə müqayisədə 1,8 faiz artaraq 36 milyon 479,3 min manat olub.

Bəhs olunan dövr rayon üçün çox əlamətdar hadisələr, yeniliklərlə yadda qalıb. Belə ki, yanvarın 11-də Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mərasimdə iştirak edib.

"Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Əlincəçay yatağında 2088 metr müxtəlif diametrli borularla kaptaj və onu sel sularından qorumaq üçün uzunluğu 1500 metr olan selyönəldici bənd tikilib. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək.



Su anbarlarından təmizlənmiş su Culfa şəhərinin və Gülüstan kəndinin əhalisinə fasiləsiz olaraq verilir. Anbarlardan rayonun mərkəzinə qədər çəkilmiş boru xətti daxil olmaqla, layihə çərçivəsində diametri 400 millimetrdən 63 millimetrə qədər borularla 59,7 kilometr daxili su şəbəkəsi çəkilib, 3438 evə su verilərək sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində bir təzyiq azaldıcı, 23 yanğın hidrantı tikilib.

Culfa şəhərində diametri 500 millimetrdən 200 millimetrə qədər borularla 34,5 kilometr daxili kanalizasiya şəbəkəsi çəkilib. Bununla da Culfa şəhərinin və Gülüstan kəndinin 25 min 700 nəfər sakini təmiz, dayanıqlı, ekoloji cəhətdən tam yararlı və Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə 24 saat təmin edilib.

Ötən il Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni kompleks istifadəyə verilib. Bəhs olunan dövrdə tikinti-quruculuq tədbirlərindən rayonun Dizə kəndinə də pay düşüb. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsinin inşaatçıları tərəfindən Dizə kəndində tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa edilərək ötən ay istifadəyə verilib. Kənddə 8,9 kilometr uzunluğunda yol yenidən qurularaq asfalt salınıb, 5,8 kilometr yol isə hamarlanıb, genişləndirilib, su keçidləri qoyulub, beton kanal çəkilib.

Kənd mərkəzinin binası isə ikimərtəbəlidir. Bu binada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kitabxana, klub, tibb məntəqəsi, Yeni Azərbaycan Partiyası Dizə kənd ərazi ilk təşkilatı, polis sahə və baytarlıq məntəqələri, poçt şöbəsinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb.

Birmərtəbəli xidmət mərkəzi də yeni obyektlər sırasındadır. Bu mərkəz sakinlərin ərzaq və təsərrüfat mallarına olan tələbatlarının ödənilməsinə imkan verir.

### *Aqrar sahədə qazanılan uğurlar ürəkaçandır*

Dağlıq və dağətəyi zonada yerləşən bu bölgədə müxtəlif sahələrin inkişafına göstərilən hərtərəfli dövlət qayğısı culfalıların bir sıra uğurlara imza atmalarına şərait yaradıb. Bu cəhətdən iqtisadiyyatda öz aparıcı mövqeyini qoruyan kənd təsərrüfatı sektorunun inkişafı 2017-ci ildə də diqqət mərkəzində saxlanılıb. Əlverişli iqlim və torpaq şəraiti, kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən davamlı dövlət qayğısı rayonda əkinçiliyin inkişafında başlıca stimul olub. Yola saldığımız ildə 6557 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 17 min 507 ton məhsul yığılıb. 4 min 831 hektar sahədən 12 min 821 ton buğda, 1217 hektar sahədən 3 min 52 ton arpa, 509 hektar dənli-paxlalılar əkini sahəsindən isə 1634 ton məhsul tədarük edilib. Cari ilin məhsulu üçün ötən ilin payızında 5 min 966 hektar sahədə payız şumu qaldırılıb, 5 min 963 hektar sahədə əkin keçirilib.



Kartofçuluğun inkişafı da diqqət mərkəzində saxlanılıb, 275 hektar sahədə kartof əkilib, 2 min 970 ton kartof yığılıb. Muxtar respublikada meyvəçilik və tərəvəzçiliyin inkişafını təmin etmək məqsədilə qəbul edilmiş dövlət proqramının icrası diqqətdə saxlanılıb.

Meyvə bağlarından 3 min 209, üzüm bağlarından 5 min 962 ton məhsul yığılıb ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. Bəhs olunan dövrdə 339 hektar tərəvəz bitkiləri əkilmiş sahədən 5 min 709 ton məhsul tədarük olunub.

Qeyd edək ki, heyvandarlıq da rayonun iqtisadiyyatına gəlir gətirən sahələrdən birinə çevrilib. Bu sahədə də ötən ilin rəqəmləri uğurludur. Belə ki, bəhs olunan dövrdə rayonda 3 min 818,5 ton ət, 9 min 594 ton süd istehsalına nail olunub.

Ekoloji tarazlığın qorunmasında müstəsna rola malik yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində aparılan işlər nəticəsində ötən il 13,4 hektar sahədə yeni yaşıllıqlar salınıb, 23,6 hektar mövcud yaşıllıq sahəsində bərpa işləri aparılıb, 12 min 115 ədəd meyvə və 3 min 820 ədəd meşə ağacları, eləcə də 1966 ədəd həmişəyaşıl ağac, 860 ədəd müxtəlif növ çoxillik gül və 300 ədəd üzüm tingi əkilib.

### *Enerji təminatı və rabitə xidmətləri qənaətbəxşdir*

Rayonun iqtisadiyyatının dinamik inkişafına paralel olaraq enerji təminatının yaxşılaşdırılması ötən il də davam etdirilib. Bəhs olunan dövrdə 3 ədəd müxtəlif güclərdə yeni transformator yarımstansiyası, 26 ədəd örtülü tipli şit quraşdırılıb, 28 ədəd transformator yarımstansiyası təmir edilib, 2 ədəd aşağı güclü transformator yarımstansiyası yuxarı güclü transformator ilə əvəz edilib. 2,2 kilometr yeraltı kabel xətti, 1,3 kilometr yüksəkgərginlikli, 3,8 kilometr aşağıgərginlikli yeni hava xətti çəkilib.

Bölgədə əhalinin təbii qaz və istiliklə təmin olunması istiqamətində də müvafiq tədbirlər həyata keçirilib. Culfa şəhərində və kənd yaşayış məntəqələrindəki orta və aşağı təzyiqli qaz xətlərində cari təmir işləri görülüb. İl ərzində 68 abonentə yeni qaz xətti çəkilib, 108 ədəd qaz sayğacı yenisi ilə əvəz olunub.

Rabitə və informasiya texnologiyaları sahəsində də mühüm işlər görülüb, əhaliyə göstərilən rabitə xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Belə ki, 2017-ci ildə Dizə kəndində aparılan tikinti-quruculuq işləri çərçivəsində 384 nömrə tutumlu ATS yeni tikilmiş kənd mərkəzinə köçürülərək montaj edilib. Rayonun bütün yaşayış məntəqələrinin internet şəbəkəsindən istifadəsi təmin olunub. İl ərzində 330 abonentə yeni telefon xətti çəkilərək ümumi abonentlərin sayı 6 min 564-ə çatdırılıb.

2017-ci ildə əhalinin sosial müdafiəsi sahəsində də tədbirlər davam etdirilib. Bu sahədə aparılan islahatlar aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasına yönəldilib.

Bu gün tarixi keçmişi ilə müasirliyi qovuşduran Culfa muxtar respublikanın 22 illik inkişafında öz yerini tutan, ölkəmizin günü-gündən gözəlləşən bölgələrindən biridir. Rayonda həyata keçirilən tikinti-quruculuq işləri buraya müasir görkəm verməklə yanaşı, əhalinin maddi rifah halının yüksəlməsinə də şərait yaradıb. Bütün bunlar muxtar respublikada mövcud inkişafın cəmiyyətin, onun hər bir üzvünün həyatında özünü aydın surətdə əks etdirməsinin göstəricisidir.



***Culfalılar 2017-ci ildə qazandıqları uğurları son hədd hesab etmirlər. Ölkəmizdə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı və Gənclər Paytaxtı statuslarını daşıması cari ildə daha böyük töhfələr qazanılmasına stimul olacaqdır. Culfalılar 2018-ci ilə məhz belə istək və yüksək ovqatla qədəm qoyublar.***

**Muxtar MƏMMƏDOV**

***Bazar iqtisadiyyatının inkişaf etdirilməsində vergi orqanlarının rolunu yüksək qiymətləndirən ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu sahədə ardıcıl tədbirlər həyata keçirilmişdir. Ölkəmizdə vergi münasibətlərinin tənzimlənməsi sahəsində sistemsizlik və boşluqların aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi bu sahədə uğurlu inkişafı təmin etmiş, 2001-ci ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsi qəbul edilmişdir.***

# Muxtar respublikada müasir vergi sistemi yaradılıb

Ümummilli liderimizin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bütün istiqamətlərdə, o cümlədən vergi siyasəti sahəsində də uğurla davam etdirilir. Ötən dövrdə ölkəmizdə güclü vergi sistemi formalaşdırılmış, geniş təhlil bazasına malik informasiya sistemləri qurulmuşdur. Vergilər Nazirliyi sistemində elektron xidmətlərin tətbiqinə başlanılmış, 2006-cı ildən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi tətbiq edilərək daxili sənəd dövriyyəsi, hesabat-məlumat sistemi tam elektronlaşdırılmış, bəyannamələrin elektron formada göndərilməsinə və vergiödəyicilərinə elektron xidmətlərin daha geniş şəkildə göstərilməsinə başlanılmışdır. Azərbaycan iqtisadiyyatının dinamik inkişafına paralel olaraq Vergi Məcəlləsinə də müvafiq dəyişikliklər edilmiş, sahibkarların vergi yükü azaldılmış, vergi dərəcələrinin aşağı salınması təmin olunmuşdur.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklər sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməklə bərabər, vergiödəyicilərinin hüquqlarının qorunmasına, vergitutma bazasının daha da genişləndirilməsinə səbəb olmuşdur. Ölkəmizdə yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin və ya fərdi sahibkarların 7 il müddətinə vergilərdən azad edilməsi, investisiya təşviqi sənədini almış hüquqi şəxslərin və ya fərdi sahibkarların mənfəətinin və ya gəlirinin 50 faizinin, habelə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi sahibkarlığın inkişafında mühüm əhəmiyyət daşıyır.

Ölkəmizin vergi sistemində aparılan islahatlar muxtar respublikamızda da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 12 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi yaradılmış, nazirliyin Əsasnaməsi təsdiq edilmişdir. Bu müddət ərzində nazirliyin yerli qurumları üçün yeni inzibati binalar tikilib istifadəyə verilmiş, nazirliyin binası əsaslı təmir edilərək yenidən qurulmuş, vergi orqanlarının əməkdaşlarına müasir standartlara cavab verən iş şəraiti yaradılmış, maddi-texniki bazanın gücləndirilməsi sahəsində xeyli iş görülmüşdür.



Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxaldan asılılığın aradan qaldırılması istiqamətində görülən tədbirlər, iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə daxil olması və sosial infrastruktur təminatının yaxşılaşdırılması nəticəsində makroiqtisadi göstəricilərin artımına nail olunmuş, aparılmış uğurlu sosial-iqtisadi siyasət Vergilər Nazirliyi üzrə müəyyən edilən proqnoz tapşırıqların vaxtında icra edilməsinə əsaslı zəmin yaratmışdır. Muxtar respublikada sahibkarlığa dövlət dəstəyinin nəticəsidir ki, 2017-ci il ərzində qeydiyyata alınan sahibkarlıq subyektlərinin 67 faizi muxtar respublikanın rayonlarının payına düşmüş, son dövrlərdə özəl sektordan vergi daxilolmaları 8,5 faizdən 63 faizədək yüksəlmişdir. Aparılan uğurlu iqtisadi siyasət nəticəsində vergi daxilolmalarının ahəngdarlığına nail olunmuş və proqnoz tapşırıqlar hər il artıqlaması ilə icra edilmişdir.

2008-ci il yanvar ayının 1-dən elektron hökumətin əsas elementlərindən olan sahibkarlıq subyektlərinin qeydiyyatında "bir pəncərə" sisteminin tətbiqi investisiya mühitini daha da yaxşılaşdırmış, sahibkarların dövlət qurumlarından asılılığını azaltmış, çoxpilləli qeydiyyat prosedurlarını sadələşdirmişdir. Sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatının "bir pəncərə" prinsipi ilə aparılmasının davamı olaraq 2011-ci il iyul ayının 1-dən etibarən fiziki şəxslərin elektron qeydiyyatına başlanmışdır. Bu sistemin tətbiqi ilə fiziki şəxslərin vergi orqanlarına getmədən və vaxt itkisinə yol vermədən, qısa vaxt ərzində elektron qaydada qeydiyyata düşməsi təmin edilir. Bütün bunların nəticəsidir ki, sahibkarlıq fəaliyyətinə başlamaq üçün qeydiyyata düşənlərin sayı sürətlə artır. 2008-2017-ci illər ərzində 285 kommersiya hüquqi şəxs və 17 min 434 fiziki şəxs qeydiyyata alınmışdır.

Məlumdur ki, vergilərin ödənilməsində və proqnozların yerinə yetirilməsində aktiv vergiödəyicilərinin sayı mühüm əhəmiyyət kəsb edir. 2017-ci ildə muxtar respublika üzrə aktiv vergiödəyicilərinin sayı 2016-cı ilə nisbətən 1,3 dəfə artmışdır.

Vergilər Nazirliyi tərəfindən kadr islahatlarına da diqqət artırılmış, gənc kadrların işə qəbulu davam etdirilmişdir. 2009-2017-ci illərdə "Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar müsabiqənin keçirilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli Fərmanına uyğun olaraq dövlət vergi orqanlarına xidmətə qəbul test imtahanı ilə keçirilmiş, 70 namizəd vergi orqanlarında xidmətə qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov vergi orqanları əməkdaşlarının qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Muxtar respublikanın vergi orqanlarında çalışanlar öz işlərini qanunvericiliyin tələblərinə uyğun qurmalı, hüquqi və fiziki şəxslər tərəfindən vergilərin vaxtlı-vaxtında ödənilməsi, vergi ödəyicilərinə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi və vətəndaşlar arasında maarifləndirmə işlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmalıdır".***

Vergilər Nazirliyinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsinə çalışacaq, muxtar respublikanın davamlı inkişafına öz töhfəsini verəcək, vergitutma bazasının daha da genişləndirilməsini təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

***Müasir dünyada geniş yayılmış sığorta növlərindən biri də icbari tibbi sığortadır. Bu sığorta növü hər bir insanın sağlamlığının qorunmasında əhəmiyyətli olub, bir çox xüsusiyyətlərinə görə mühüm iqtisadi və sosial münasibətlərdən hesab olunur. Xüsusən bazar iqtisadiyyatı şəraitində hər bir ailə büdcəsinin qorunması məqsədilə tətbiq olunan icbari tibbi sığorta sistemi hər kəsin qarşılaşa biləcəyi maddi problemlərin həllinə kömək edən mütərəqqi dünya təcrübəsidir.***

# İcbari tibbi sığorta hər kəs üçün faydalıdır

Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə Azərbaycan Respublikası vətəndaşlarının, habelə Naxçıvan Muxtar Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq icazəsi olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin tibbi yardım almasına təminat verir. Bu, icbari tibbi sığorta proqramına uyğun olan həcmdə əhalinin tibbi xidmətlər almasını təmin edir.

Ölkəmizdə və muxtar respublikamızda tətbiq olunmasına başlanan icbari tibbi sığorta insanların sosial müdafiəsinin yüksəldilməsinə yönəlmiş mühüm bir addımdır. Bu mənada, "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 3 may tarixli Fərmanı ilə icbari tibbi sığortanın ilk olaraq Sədərək rayonunda tətbiq edilməsi əhaliyə göstərilən diqqət və qayğının daha bir bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanında verilən tapşırıqlara uyğun olaraq Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi üçün lazımi işlərin həyata keçirilməsinə başlanılmışdır. İcbari tibbi sığortanın mərhələli şəkildə həyata keçirilməsi muxtar respublikada tətbiq edilməsi ilə əlaqədar mümkün problemlərin aşkarlanması və səmərəli həlli yollarının tapılması, habelə icbari tibbi sığorta sisteminin tətbiqi sahəsində təcrübənin əldə edilməsinə imkan verəcəkdir.

İcbari tibbi sığortaya cəlb olunan əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması, əhalinin sığortalanma prosesinin və qeydiyyatının elektron qaydada həyata keçirilməsi, icbari tibbi sığorta çərçivəsində tibb müəssisələri tərəfindən göstərilən xidmətlər üzrə maliyyələşmənin elektron qaydada aparılması və müvafiq dövlət qurumlarından aidiyyəti məlumatların əldə olunması istiqamətində işlər görülüb. Proqram təminatlarının, informasiya sistemlərinin, informasiya ehtiyatlarının (məlumat bazalarının), reyestrlərin yaradılması və təkmilləşdirilməsi işinə başlanılıb.



Görülən işlərlə bağlı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndəsi Vüsal Məmmədov ilə söhbətimizdə bildirdi ki, Ali Məclisin Sədri tərəfindən 2018-ci il 25 yanvar tarixdə Sədərək Rayon Mərkəzi Xəstəxanasında görülmüş işlərə baxış keçirilmiş və muxtar respublika rəhbərinin tapşırığı ilə Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Bunun üçün icbari tibbi sığortaya cəlb olunan şəxslərin şəxsiyyətini təsdiq edən sənəd üzrə məlumatlar, şəxsin iş yeri və gəlirləri, pensiyaçılar, sosial müavinət alanlar, işsiz statusu olanlar, ünvanlı dövlət sosial yardımı alanlar, gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsi üzrə məlumatlar, əyani təhsil alan tələbələr, ölüm və doğum faktının qeydiyyata alınmasına dair məlumatlar, tibb müəssisələri üzrə məlumatlar, mövcud tədbirlər proqramları ilə əhatə olunan, həmçinin özəl tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslər üzrə məlumatlar toplanılıb. Bundan əlavə, muxtar respublikanın sosial-iqtisadi və demoqrafik göstəriciləri üzrə təhlillər aparılmış, icbari tibbi sığortanın daha effektiv tətbiqi və inkişafı üçün istiqamətlər müəyyən edilmişdir.

İcbari tibbi sığorta tibbi xidmətlərin hər kəs üçün əlçatanlığını təmin edərək sonradan genişləndiriləcək baza (əsas xidmətlər) zərfi çərçivəsində əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsini təmin edəcəkdir. İcbari tibbi sığortanın baza zərfindəki tibbi xidmətlərin tətbiqinə mərhələli şəkildə başlanılacaqdır. İlk olaraq sığortaolunanlar ilkin səhiyyə (qəbul həkimi) xidmətindən yararlana bilərlər. Bu xidmət ödənişsiz həyata keçirilir. Tibb müəssisəsi göstərdiyi icbari tibbi sığortanın baza zərfinə daxil olmayan, məsələn, stomatoloji xidmətlər, həyati vacib olmayan və digər tibbi xidmətlərin dəyəri məbləğində sığortaolunanlar ödəniş edəcəklər.

İcbari tibbi sığortaya keçid mərhələli şəkildə qanunla müəyyən olunmuş tələblərə uyğun həyata keçiriləcəkdir. İcbari tibbi sığortanın tətbiqi əhalinin sağlamlıq səviyyəsinə müsbət təsir göstərəcək, xəstəliklərin erkən mərhələdə aşkar edilməsi ilə daha ağır mərhələyə keçidinin qarşısı alınacaq, ən ucqar kəndlərdə belə, əhali keyfiyyətli tibbi xidmətlərlə təmin olunacaq, infeksion və digər xəstəliklərin səmərəli profilaktikası təşkil ediləcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanına uyğun olaraq yaradılmış Səhiyyə informasiya idarəetmə sistemi vasitəsilə sığortaolunanlar 6 aydan bir "Chek-up" müayinələrinə cəlb olunması barədə və milli peyvənd təqviminə və dispanser nəzarətə ehtiyacı olan xəstəliklərin müayinə təqviminə uyğun olaraq SMS vasitəsilə məlumatlandırılacaqlar.

Fərmanda nəzərdə tutulduğu kimi agentliyin *www.its.naxcivan.az* internet saytı yaradılıb. Saytda onlayn sığortalanma, müraciət və qeydiyyat bölmələri istifadəyə verilib. Bu da əhalinin internet üzərindən birbaşa elektron qaydada sığortalanmasına, qeydiyyatdan keçməsinə və onlayn müraciətlərin aparılmasına imkan verəcəkdir. Sığortaolunan vətəndaş İcbari Tibbi Sığorta Şəhadətnamə nömrəsini daxil etməklə müayinə tarixçəsi, müayinənin gedişi və nəticələrinə dair məlumatları əldə edəcəkdir.

Göründüyü kimi, icbari tibbi sığorta bütün cəmiyyət üzvlərinin sağlamlığının qorunması üçün geniş imkanlar vəd edir. Bu, əhalinin ömür uzunluğunun artırılması istiqamətində həyata keçirilən çox mühüm layihədir. Bunun köməyi ilə muxtar respublikada əhaliyə keyfiyyətli tibbi xidmətlərin həyata keçirilməsinin stimullaşdırılmasına, səhiyyə sahəsində dayanıqlı maliyyə mənbələrinin formalaşdırılmasına, mövcud resursların daha səmərəli istifadə edilməsinə nail olunacaqdır. Gələcəkdə əhatə dairəsinin genişləndirilməsi (kütləviləşməsi) ilə əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəlməsi təmin olunacaq, xəstəliklərin səmərəli profilaktikası təşkil ediləcəkdir. Odur ki, bu sığorta növünün tətbiqi ilə bağlı maarifləndirici tədbirlərin aparılması da muxtar respublikamızda bu sahəyə olan marağın artmasına və vətəndaşların sosial müdafiəsinin daha da gücləndirilməsinə səbəb olacaqdır.

**Əli CABBAROV**

*Yeni nəşrlər*

## Tibbi xidmətin təşkili ilə bağlı yeni metodik vəsait




***Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimovun və baş həkimin müavini İlkay Əliyevanın "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək keyfiyyətlə çap olunmuş "Məktəblərdə və bağçalarda tibbi xidmətin təşkili" adlı kitabı oxuculara təqdim olunub.***

Səhiyyə maarifi xarakteri daşıyan metodik vəsaitdə qeyd olunur ki, bu gün ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosialyönümlü siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Son illər bu sahədə mühüm tədbirlər həyata keçirilib. "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı"nın icrası ilə ana və uşaqlara tibbi xidmət göstərən müəssisələrin maddi-texniki bazası möhkəmləndirilib, dərman preparatları və tibbi texnika ilə təminatı yaxşılaşdırılıb.

Muxtar respublikada uşaq əhalisinin sağlamlığını qorumaq və onlara daha yaxşı xidmət göstərmək üçün uşaqlar bağça və məktəblərdə tibbi xidmət ilə əhatə olunub, tibb otaqları və məntəqələri təşkil edilib. Yeni metodik vəsait həmin məntəqələrdə çalışan tibb işçilərinə müəyyən kömək göstərmək məqsədilə hazırlanıb. Kitabda məktəb tibb işçilərinin vəzifələrindən bəhs olunarkən bildirilir ki, tibb məntəqəsinin həkim və tibb bacısı məktəbdə təhsil alan şagirdlərin sağlamlıqlarına nəzarət etməklə yanaşı, şagirdlərin tibbi maariflənməsinə, məktəbdə sanitar-gigiyenik tədbirlərin aparılmasına, epidemioloji rejimin qorunmasına ciddi diqqət yetirməlidirlər. Onlar cari və profilaktik tədbirlərin həyata keçirilməsinə, məktəbdə satılan və hazırlanan ərzaqların təhlükəsizliyinə nəzarət etməli, hər gün şagirdlərin sağlamlıq vəziyyəti ilə maraqlanmalı və xəstəliklə əlaqədar dərsə gəlməyən uşaqlar haqqında məlumat aldıqda dərhal uşaq poliklinikasına məlumat verməlidirlər.

Hər bir məntəqənin həkim və orta tibb işçisi üçün stolüstü kitab olacaq bu vəsaitdən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin və Naxçıvan Tibb Kollecinin tələbələri də istifadə edə bilərlər.

Metodik vəsait Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının qərarı ilə çap olunmuşdur.

**Hüseyn ƏSGƏROV**

## İlin idman yekunlarına dair iclas keçirilib



***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən idman federasiyalarının ötən il ərzində gördüyü işlər və 2018-ci ildə qarşıda duran vəzifələr mövzusunda iclası keçirilib.***

İclası giriş sözü ilə açan muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov kütləvi bədən tərbiyəsi və idman sahəsi üzrə ötənilki nailiyyətlərdən bəhs edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızda idman və bədən tərbiyəsinin inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilib. Bu gün muxtar respublikada müasir idman infrastrukturu formalaşdırılıb, uşaq və gənclərin idmanla məşğul olmalarına, onların müxtəlif səviyyəli çempionat, turnir və yarışlarda iştirak etmələrinə hərtərəfli şərait yaradılıb. Eyni zamanda idmançı, məşqçi-müəllim heyətinin sosial vəziyyəti yaxşılaşdırılıb, bu tədbirlər çərçivəsində ötən il gimnastika üzrə məşqçi-müəllim Humay Qafarova Naxçıvan şəhərində mənzillə təmin olunub. Bununla yanaşı, ötən dövrdə yüksək nəticələr göstərmiş yeniyetmə və gənc idmançılardan Sadiq Məmmədov, Pərviz Qasımov, Rauf Murtuzov və Tayfur Əliyevin adı "Qızıl kitab"a əlavə edilib, bu idmançılar Ali Məclis Sədrinin fəxri təqaüdünə layiq görülüblər. Eyni zamanda "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilmiş müşavirədə bir sıra federasiya və idmançılar qazandıqları uğurlara görə Ali Məclis Sədri tərəfindən mükafatlandırılıblar.

Nazir vurğulayıb ki, muxtar respublikada olimpiya-idman komplekslərində, idman mərkəzlərində, şahmat məktəblərində, stadionlarda, mini-futbol meydançalarında, ümumtəhsil məktəblərinin idman zallarında, muxtar respublikanın şəhər, rayon və qəsəbələrində fəaliyyət göstərən idman federasiyalarının klub və bölmələrində, Uşaq-gənclər idman məktəbinin qruplarında 18 yaşadək, ümumilikdə, 29 min 769 uşaq və gənc idmanla məşğul olur ki, onun da 24 min 687-si oğlanlar, 5 min 82-si isə qızlardır. Ən müasir tələblərə cavab verən idman infrastrukturunun formalaşdırılması muxtar respublikamızda beynəlxalq yarışların keçirilməsinə də şərait yaradıb. Naxçıvanda qızların idmana cəlbi istiqamətində tədbirlərin davam etdirilməsi, onların müvafiq idman növləri üzrə federasiyalara cəlbinə nail olunması məqsədilə həndbol, stolüstü tennis, üzgüçülük, Şərur Olimpiya-İdman Kompleksində, Naxçıvan Dövlət Universitetində, "Naxçıvan" Universitetində və Əlillərin Bərpa Mərkəzində bədii gimnastika bölmələri yaradılıb.

Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev, Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov, Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev və Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev çıxış edərək müvafiq idman növləri üzrə federasiyalar tərəfindən həyata keçirilən tədbirlərdən, idman uğurlarından danışıblar. Bədii gimnastika üzrə məşqçi-müəllim Sevinc Nəcəfova və idmançı Nizami Hüseynov isə yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Sonra ötən il qazandıqları idman uğurlarına görə idmançılar Hüseyn Abdullayev, Zeynəb İbrahimli (hər ikisi paralimpiya), Nizami Hüseynov (budo döyüş növü), Nazlı Hümbətova (şahmat), İbrahim Cəfərzadə (boks) və Əmrah Nağıyev (yüngül atletika) gənclər və idman nazirliyi tərəfindən fəxri diplom və hədiyyələrlə mükafatlandırılıblar.

Eyni zamanda ötən il qazandıqları medal sayına görə (Güləş Federasiyası 26, Karate-do Federasiyası 24, Boks Federasiyası 20, Yüngül Atletika Federasiyası 20 medal) idman federasiyaları da xüsusi mükafata layiq görülüblər.

İclasa yekun vuran gənclər və idman naziri Azad Cabbarov qeyd edib ki, ötən il məşqçilərə təlimlər, treninqlər, gənc idmançılara nümunəvi dərslərin keçirilməsi diqqətdə saxlanılıb, bütün idman növləri və federasiyalar üzrə peşəkar və təcrübəli məşqçilər dəvət edilib, komandaların təlim-məşq toplanışları keçirilib. Məktəblilərin idmanla kütləvi məşğul olması məqsədilə əvvəllər mövcud olmuş məktəblilərin spartakiadası ənənəsi bərpa edilib, müxtəlif idman növləri üzrə yüzlərlə yeniyetmə və gənc bu idman yarışlarında iştirak edib. Bütün bu görülən işlər, həyata keçirilən tədbirlər nazirlik və muxtar respublikada yaradılmış idman federasiyalarının birgə fəaliyyəti nəticəsində mümkün olub. 2018-ci ildə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırıqlarına uyğun olaraq nazirlik və idman federasiyalarının fəaliyyəti mütəşəkkil xarakter almalı, idman federasiyalarının yeni bölmələri, müvafiq yığma komandalar formalaşdırılmalı, yerlərdə istedadlı gənclərin idmana cəlbi ilə bağlı görülən işlər daha da genişləndirilməlidir. Bununla yanaşı, idman obyektlərindəki mövcud avadanlıqlardan səmərəli istifadə olunmalı, həmin obyektlərin idman ləvazimatları ilə təchizatı və onların qorunub saxlanılmasına nəzarət artırılmalıdır.

***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələrinin Ağbulaq İstirahət Mərkəzində fevralın 5-də başlayan "Qış məktəbi"nin birinci mərhələsi başa çatıb.***

## "Qış məktəbi"nin ikinci mərhələsinə start verilib

Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin, həmçinin Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinin iştirak etdikləri "Qış məktəbi"nin ilk mərhələsi olduqca maraqlı və əyləncəli keçib. Tələbələr bu müddət ərzində müxtəlif idman növlərində qüvvələrini sınayıb, "Vətəni tanı", "Nuh yurdu", "Axtar tap" kimi müxtəlif intellektual oyunlarda mübarizə aparıblar. Həmçinin gənclərə "Qış məktəbi" çərçivəsində vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilib. Şahbuz Rayon Mədəniyyət Evinin instrumental ansamblının çıxışları isə layihə müddətində iştirakçılarda xoş ovqat yaradıb.

Bununla yanaşı, "Qış məktəbi"nin ikinci günündə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevin mühazirəsi dinlənilib. Maraqlı keçən görüşdə daha sonra gəncləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, gənclərin sağlamlığı da təşkilatçılar tərəfindən daim diqqət mərkəzində saxlanılıb, bu məqsədlə düşərgəyə zərurət yaranacağı halda ilkin tibbi yardım üçün həkim də dəvət olunub. Həmçinin iştirakçılara gündə üç dəfə milli mətbəximizin nemətləri təklif olunub, onlar üçün



çay süfrəsi təşkil edilib. İlkin mərhələdə 50 nəfər tələbə iştirak edib.

"Qış məktəbi"nin ikinci mərhələsinə isə fevralın 12-də start verilib. Fevralın 15-nə kimi davam edəcək layihədə muxtar respublikada fəaliyyət göstərən orta ixtisas məktəblərinin tələbələri iştirak edirlər.

Tədbirlər Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə həyata keçirilir.

## Güləşçilərimiz beynəlxalq turnirin qalibi olublar



Naxçıvan Muxtar Respublikasında idmana və idmançılara göstərilən dövlət qayğısı qazanılan uğurlarda öz əksini tapır. Ötən il muxtar respublika idmançılarının ölkədaxili və beynəlxalq arenalardakı nailiyyətləri Naxçıvanda idman bazasının, idman ənənələrinin nə qədər geniş, çoxşaxəli olduğundan xəbər verir.

2018-ci ilə yeni qədəm qoymağımıza baxmayaraq, idmançılarımız artıq muxtar respublika idmanını beynəlxalq arenalarda layiqincə təmsil edir, uğurlara imza atırlar. Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası da 2018-ci ilə uğurla başlayıb. Belə ki, federasiyanın yetirmələri İran İslam Respublikasının Miyandab şəhərində sərbəst güləş üzrə beynəlxalq turnirdə uğurlu nəticələr əldə ediblər.

İran İslam Respublikasının, Türkiyə Cümhuriyyətinin və Azərbaycanın Naxçıvan Muxtar Respublikasının, ümumilikdə, 9 komandasının mübarizə apardığı turnir 3 gün davam edib. Komanda və fərdi yarışlarda muxtar respublikamızın idmançıları böyük uğura imza ataraq beynəlxalq turnirin qalibi olublar. Belə ki, 14 idmançımız – Tuncay Məmmədov, Nicat Ocaqquliyev, Abbas Nəzərəliyev, Hüseyn Əhmədli, Rəvan Bayramov, Heydər Nəcəfov, Məhərrəm Səfərov, Sultan Quliyev, Məzahir İsmayılov, Bəhlul Əsgərli, Fariz Qurbanov, Novruz Ağayev, Yasin Cəfərov və Ələkbər Əsgərov bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Digər 6 idmançımız – Nurağa Əhmədov, Ərkal Məmmədov və Rza Vəliyev gümüş, Oruc Bayramov, Anar Həsənov və Yəhya Paşayev isə bürünc medal qazanıblar.

Sonda komanda hesabında qalib olan güləşçilərimizə təşkilatçılar tərəfindən kubok və fəxri diplomlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

*Yazmasaq, olmur*

## Sosial ünsiyyətlə sosial bəlalara doğru

Məktublar, məktublar... Ötən illərin tarixə qovuşan saralmış vərəqləri. Həsrətliləri qovuşduran, uzaqdakıları yaxınlaşdıran, ürəkləri birləşdirən məktublar. İnsanların yazı mədəniyyətini formalaşdıran, onlara düzgün yazmaq qabiliyyəti aşılayan, səmimiliyini artıran məktublar. Texnoloji inkişafın qeyri-operativ adı ilə sıxışdırıb sıradan çıxmaya məruz qoyduğu sosial itki. Son cümlə ilə razılaşmaq olar. Sürətli internet həyatımızın ayrılmaz hissəsinə çevrilən andan artıq əksər insanlar məktub yazıb, ünvan axtarıb, günlərlə gözləri yolda cavab gözləmir. Bu, təbiidir. Söz yox ki, məktubların nə olduğunu məktub yazanlar bilər.

Məktubları xatırlatmaqda məqsədim indi onların yerini alan sosial ünsiyyət vasitələrindən söhbət açmaqdır. "Yerini alan" anlamı isə yalnız texnoloji cəhətdən ola bilər. Çünki hələ indi də çoxumuzun ən əziz əşyamız kimi qoruduğumuz, hərdən açıb oxuyarkən o illərə qayıtdığımız, saralmış vərəqlərə bəzən göz yaşlarımızın, bəzən sevincimizin, xoş günlərimizin hopduğu və heç nəyin onların yerini verə bilmədiyi məktublarımız var.

İndi ancaq rəsmi yazışmalarda məktubdan istifadə olunur. Digər məktubların yerini isə sosial şəbəkələrdə paylaşılan, "ömrü" qısa mesaj adlandırılan yazışmalar alıb. Təbiidir, zaman dəyişir, cəmiyyət müasirləşir, həyatımıza yeniliklər daxil olur. Lakin gəlin etiraf edək ki, yeniliklərdən düzgün yararlanmırıq. Bu isə internetdən istifadə edənlərin sayının sürətlə artdığı bir dövrdə cəmiyyətin hər an sosial bəlalara doğru addımladığını danılmaz fakta çevirir. Xeyli araşdırmalardan sonra bu yazını yazmağı özümə borc bildim. Lakin borcumu həyata keçirmək azdır, həyəcan təbili çalmaq lazımdır. Çünki sosial şəbəkələrdə yazışanlar dilimizin qrammatik xüsusiyyətlərinə ağır zərbə endirirlər. Fakta nəzər salaq: Ana yaxın rəfiqəsindən gələn mesajı oxuyur və ona cavab yazır. Yazını bitirir, mesajı yenidən oxuyur, səhvlərini düzəldir. Bunu kənardan müşahidə edən oğlu: "Ana, sən yazdığın mesajın səhvlərini də düzəldirsən, nöqtə, vergül qoyursan?" – deyir və gülməyə başlayır. Hələ, üstəlik, bacısını səsləyir ki, ay bacı, anam yazdığı mesajın səhvini də düzəldir ey... Uşaqların gülüş səsləri bir-birinə qarışır. Ana isə onlara izah etməyə çalışır ki, bu, kiçik bir yazıdır, müəllifi isə sənsən, o yazı səhvləri ilə də, düzləri ilə də sənindir. Hələ, üstəlik, təhsilli adamsansa, düzəliş edilməmiş yazını göndərməyi necə qüruruna sığışdıra bilərsən? Yadımdadır, məktub yazılan dövrlərdə təhsili olmayan adam məktub yazarkən onu bir müəllimə, savadı olan adama oxutdurmamış göndərməzdi. Düşünün, nəyə görə? Səhvi olmasın deyə. Əgər təhsili olmayan insan belə düşünürdüsə, ali təhsili olan adam necə səhvə yol verə bilər? Araya sükut çökür...

Anaya o "iradlar" səbəbsiz yerə olunmamışdı. Çünki indi insanlar, xüsusən də cəmiyyətimizin böyük hissəsini təşkil edən gənclər sosial şəbəkələrdə yeni bir ünsiyyət "dili" yaradıblar. Faktlara nəzər salaq: " Salam, canım, necəsən? – "slm cnm ncsn?", "Bu gün gəlirsən?" – "bugn gersən?", "Həyatım, universitetdəsən?" – "heyatm unidəsən?", "Səninçün çox darıxmışam, gəlirsən?" – "Sencn chox darxmwam gərsən?", "Sağ ol, görüşərik" – "Saol gorwerk", "Oldu" – "ok" kimi ifadə olunur. Budur, bir azərbaycanlının yazı forması: ingilislərin "w"su, türklərin "e"si, azərbaycanlıların bir neçə hərfi. Qeyd etdiklərim hələ gündəlik ünsiyyətin ən kiçik elementləridir. Gün uzunu dayanmayan, dincəlməyən insanlar sosial şəbəkələrdə öz aralarında formalaşdırdıqları bu yeni "dildə" səhifə-səhifə yazıb-pozurlar. Və yazdıqca da dilimizin zənginliyinə, qrammatik xüsusiyyətlərinə zərbədir ki, endirirlər. Müşahidələrimə əsasən deyə bilərəm ki, bu cür yazı alışqanlığı insanların virtual "həyat"ından real həyatına da keçib. Dilimizə aid olmayan hərflərə, sözlərə gənclərin mühazirə dəftərlərində, digər insanların nə ilsə bağlı idarə, müəssisə, təşkilatlara müraciət məktublarında, hətta məqalələrdən alacaqları ərzaq siyahılarında da rast gəlmək olar.

Axı bunu bilməyən yoxdur ki, Azərbaycan dili öz varlığını qorumaq üçün ardıcıl mübarizə aparmış, mənsub olduğu xalqla birlikdə inkişaf edərək çoxsahəli dünyəvi elmi dil səviyyəsinə yüksəlmişdir. Bu işdə bədii söz ustalarının, ədəbiyyatımızın korifeylərinin əvəzsiz xidmətləri vardır. Onlar ümumxalq dilinə həmişə fəal münasibət bəsləmiş, onun zənginləşməsi və hərtərəfli inkişafı üçün böyük fədakarlıqlar göstərmişlər. Tarixin müəyyən dövrlərində dilimiz düşmən qüvvələrin təzyiqinə, təcavüzünə məruz qalıb, lakin xalqımız milli birliyi, milli qüruru sayəsində dilini qorumağa müvəffəq olub. Ulu öndərimiz Heydər Əliyev bu amanı daha böyük əzmkarlıqla davam etdirmişdir. Onun xalqına olan sonsuz məhəbbəti ana dilimizi yüksəklərə qaldırdı. Ulu öndərin ana dilinə münasibəti hər kəs üçün örnəkdir.

İnsanların sosial ünsiyyət "dilinə" nəzər salanda onlara verilən belə bir sual yaranır. Məgər ingilislər, türklər, ruslar yazışmalarında bizim dilimizdə bir hərfdən, bir kəlmə sözdən istifadə edirlər? Əlbəttə, yox. Belə isə nə üçün məhz biz? Xalqın hər bir nümayəndəsi öz dilinin təmizliyi uğrunda mübarizə aparmağa, dili yad ünsürlərdən qorumağa borcludur. Azərbaycan dilinin analoqu yoxdur. Bu dilin şirinliyini, gözəlliyini, cazibəsini heç bir dildə tapmaq olmaz.

**✍ Mətanət MƏMMƏDOVA**

### İtmişdir

Kəngərli rayonu, Xok kənd sakini Cəfərov Səttar Hüseyn oğlunun adına olan 226A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Tarverdiyev Anar Əziz oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş diplom itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 132